AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

NAZİM MƏMMƏDOV

# QARABAĞIN İNKİŞAF KONSEPSİYASI

## (1960-CI İLLƏRİN SONLARI – 1980-Cİ İLLƏRİN ƏVVƏLLƏRİ)

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI — 2023

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktorlar:** **Ədalət Qasımov,**
*tarix elmləri doktoru*

**İlqar Niftəliyev,**
*tarix üzrə fəlsəfə doktoru,dosent*

**Rəyçilər:** **İkram Ağasıyev**
*tarix elmləri doktoru, professor,*
**Ədalət Mustafayev**
*tarix üzrə fəlsəfə doktoru,*
**Leyla Hüseynova**
*tarix üzrə fəlsəfə doktoru,*
**Günel Aslanlı**
*tarix üzrə fəlsəfə doktoru*

Məmmədov Nazim. Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları – 1980-ci illərin əvvəlləri). Bakı, "Optimist" MMC-2023,304 s.

*Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın XX əsrin 60-cı illərinin sonları - 80-ci illərinin əvvəlləri tarixi kompleks şəkildə araşdırılır. Monoqrafiyada Heydər Əliyevin respublika rəhbərliyinə təyin olunmasından sonra Qarabağın sosial-iqtisadi və mədəni yüksəlişinə diqqətin artırılması, regionun dinamik inkişafı, Ermənistanın Dağlıq Qarabağa olan ərazi iddialarına qarşı mübarizə məsələləri işıqlandırılır.*

*Kitabdan mütəxəssislər və geniş oxucu auditoriyası faydalana bilər.*

**ISBN –9 7 8 - 9 9 5 2 - 5 6 1 - 1 7 - 3**

*© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2023*



*Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

**Heydər Əliyev**
***Ümummilli lider***



*Bu gün Azərbaycan Heydər Əliyevsiz yaşayır. Bu, bizim üçün böyük imtahandır, hamımız üçün böyük imtahandır. Hamımız üçün böyük kədərdir, dərddir. Amma bizə təskinlik verən odur ki, Heydər Əliyevin ideyaları yaşayır. Onun qurduğu, yaratdığı müasir Azərbaycan güclənir, yaşayır və bundan sonra da yaşayacaqdır.*

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***



# MÜNDƏRİCAT


**GİRİŞ.** ........................................................................ 6

**I FƏSİL.** Qarabağ sənayesi: Tənəzzüldən tərəqqiyə .............. 12
**II FƏSİL.** Qarabağda kənd təsərrüfatının dinamik yüksəlişi... 39
**III FƏSİL.** Qarabağ əhalisinin sosial müdafiəsinin gücləndirilməsi .................................................... 70
**IV FƏSİL.** Qarabağda milli mədəniyyətin yeni inkişaf mərhələsi.......................................................... 104
**V FƏSİL.** Heydər Əliyevin Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə olan ərazi iddialarına qarşı mübarizəsi ........................................................ 127
**VI FƏSİL.** Heydər Əliyev və Şuşanın tarixi abidələrinin qorunması. ........................................................ 159
**VII FƏSİL.** Azərbaycanın Dağlıq Qarabağ bölgəsində sosial və mədəni yüksəliş................................................. 165
**VIII FƏSİL.** Heydər Əliyev və Xankəndi şəhərinin sosial-iqtisadi və mədəni inkişafı............................................. 177
**IX FƏSİL.** Şuşa rayonunun iqtisadi inkişafı ........................... 221
**X FƏSİL.** Heydər Əliyev və Şuşa şəhər əhalisinin sosial rifahının yüksəlməsi............................................ 243

**NƏTİCƏ.** ........................................................................ **265**
**İstifadə olunmuş ədəbiyyat.** ................................................ **273**

## GİRİŞ

Ümummilli lider Heydər Əliyev XX əsr Azərbaycan tarixində böyük rol oynamış, geniş və hərtərəfli fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Azərbaycan müstəqillik dövrünə qədəm qoyduğu bir vaxtda cəmiyyətimizin qarşısında duran mühüm vəzifələrdən biri ictimai-siyasi və mədəni inkişafda ümumbəşəri dəyərlərə istiqamətlənməklə yanaşı milli-mənəvi dəyərləri qorumaq və daha da inkişaf etdirmək olmuşdur. Bununla əlaqədar olaraq, Heydər Əliyev irsinin öyrənilməsi, onun elmi-nəzəri təhlilinə əsaslanaraq 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin sosial-iqtisadi inkişafının araşdırılması böyük elmi və ictimai-siyasi əhəmiyyətə malikdir. Bu baxımdan, tədqiq etdiyimiz mövzu Azərbaycan tarixinin daha dərindən və tarixi həqiqətə uyğun araşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyev çıxışlarından birində tariximizin tədqiq etdiyimiz bu şərəfli dövrünün araşdırılmasına münasibətini bildirərək demişdir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir... Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır" [6, s.15].

Hazırda xalqın sosial-mədəni-mənəvi potensialının güclənməsi, dövlətin sosial-mədəni siyasəti 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində əldə olunmuş zəngin təcrübənin nəticə-



sidir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamında deyildiyi kimi "Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin strategiyasına uyğun respublikamızda həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdı" [1]. Bu baxımdan da, 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Qarabağın sosial-iqtisadi və mədəni inkişafı tarixini öyrənmək və araşdırmaq böyük elmi əhəmiyyət kəsb edir.

Tədqiqatın əsas məqsədi 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin sosial-iqtisadi vəziyyətini araşdırmaq, bu dövrdə bölgədə demoqrafik proseslərin, sənaye, kənd təsərrüfatı və mədəniyyət sahələrinin inkişaf dinamikasını izləməkdir. Eyni zamanda, XX əsrin 70-ci illərində Ermənistanın Azərbaycanın Qarabağ bölgəsinə qarşı növbəti, əsassız ərazi iddiaları, Ümummilli lider Heydər Əliyevin gərgin və məqsədyönlü siyasətinin nəticəsi olaraq Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması kimi önəmli problemlərin təhlili mövzunun əsas məqsədlərini təşkil edir.

Azərbaycan Respublikası Qarabağ bölgəsinin 1960-cı illərin sonları - 1980-ci illərin əvvəllərində siyasi durumu, sosial iqtisadi və mədəni inkişafı bu vaxta qədər olan tədqiqatlarda ayrı-ayrı aspektlərdə, müxtəlif səpgilərdə işıqlandırılmış, həmin xronoloji çərçivə müstəqil tədqiqat obyekti olmamış, problemin tarixi, elmi, mədəni, siyasi və tarixşünaslıq məsələləri sistemli şəkildə kompleks tədqiq edilməmişdir. Apardığımız tədqiqatın aktuallığı və elmi yeniliyi də Azərbaycanın iqtisadi, siyasi və mədəniyyət tarixinin tərkib hissəsi olan Qarabağın 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində tarixinin qaranlıq səhifələrinin işıqlandırmaqdan ibarətdir.

1969-cu ildə respublikada hakimiyyətə gələn Heydər Əliyevin fəaliyyət proqramı ilə yaxından tanışlıq sübut edir ki, o, məsul posta hazır quruculuq konsepsiyası ilə gəlmişdi. Xarakter

etibarı ilə qətiyyətli və novator ruhlu Heydər Əliyev hakimiyyətə gələndən az sonra yeni bir dünyagörüşü ortaya qoydu: məqsəd yeni bir Azərbaycan idi.

1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində yüksəlişi hədəf götürmüş yeni həyat quruculuğunda ən önəmli sahə olan iqtisadi dirçəlişlə yanaşı, milli-mənəvi dəyərlərin qayıdışına və intişarına, milli düşüncə sisteminin formalaşmasına yönələn istiqamətlər qoşa addımlayır, paralel inkişaf edirdi. Sovet ideologiyasının ən incə məqamlarına bələd olan Heydər Əliyevin həyat təcrübəsi, şübhəsiz ki, onda "milli şüur millət üçün var olmaq əzmi və şərtidir" qənaətini gücləndirmiş və zamanında millətin özünü özünə tanıtmaq konsepsiyasının təməlinə çevrilmişdi. Bu cürətli addımlar beynəlmiləl sütunlara söykənən sovet ideologiyası dönəmində çox böyük cəsarət tələb edirdi ki, Heydər Əliyev bunu bacardı.

Millətin ruhunu duyan, qabiliyyətinə bələd olan Heydər Əliyevin formalaşdırdığı özünüdərk prosesindən doğan ümummilli şüur yüksəlişinin, cəmiyyətin müxtəlif sahələrinin inkişafının ilhamverici qüvvəsi oldu və 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərini sovet Azərbaycanının tarixində intibah dövrü kimi də səciyyələndirmək olar. Respublika iqtisadiyyatının dinamik inkişafı fonunda sosial həyat xeyli yaxşılaşmışdı. Elm, mədəniyyət və incəsənət çiçəklənmə dövrünü yaşayırdı.

1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Heydər Əliyevin milli oyanış, iqtisadi və sosial tərəqqi siyasəti sayəsində Azərbaycanın Qarabağ bölgəsi xeyli inkişaf etdi.

Monoqrafiyada 1960-cı illərin sonları – 1980-ci illərin əvvəllərində Qarabağda yüngül, toxuculuq, yeyinti və yerli sənayenin bərpa və daha da inkişaf etdirildiyini, yüngül və toxuculuq sənayesi müəssisələrinin yenidən qurulması və genişləndirilməsi, onların müasir texnika ilə təchiz olunması və texnoloji proseslərin yaxınlaşdırılması nəticəsində əsas istehlak məmulatlarının 1985-ci ildə müharibədən əvvəlki səviyyəsini ötüb keçməsini faktlarla göstərilmiş, kənd təsərrüfatının bərpa və inkişafına diqqətin artırılması, əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvandarlığın məhsuldarlığının artırılması, kolxoz və sovxozların işinin yaxşılaşdırılması, kənd təsərrüfatı maşınlarının istehsalının artırılması barədə tədbirlərin həyata keçirilməsi nəticəsində Qarabağın kənd təsərrüfatının istehsalat-texniki bazasının möhkəmləndirilməsindən geniş bəhs olunmuş, Qarabağda mədəniyyət quruculuğu sahəsində həyata keçirilən tədbirlər və onun uğurlu nəticələri, 1970-ci illərdə Ermənistanın növbəti dəfə Qarabağ məsələsinin yenidən qaldırılması cəhdlərinin Ümummilli lider Heydər Əliyev tərəfindən qətiyyətlə alınması kimi önəmli məsələlər tədqiq edilmişdir.



Sovetlər dövründə təhrif olunmuş tariximizin artıq bundan sonra da təhrifinə yol verilməməsi üçün Heydər Əliyev 1997-ci ilin yanvarında Azərbaycan Milli Elmlər Akademiyasının alimləri ilə görüşündə Azərbaycanın XIX-XX əsrlər tarixinin obyektiv şəkildə öyrənilməsini elmimizin qarşısına əsas vəzifələrdən biri kimi qoydu. [3, s.369] Həmçinin Ümumdünya-tarixi nəzəri baxışları və konsepsiyaları, xüsusilə modernləşmə xəttinin müddəaları ilə eyni zamanda, Heydər Əliyev və İlham Əliyevin dövlətçilik təcrübəsinin ümumiləşdirilməsindən irəli gələn müddəaları da elmi-nəzəri baza təşkil etməklə Respublika tarixinin yazılmasında mühüm əhəmiyyət kəsb edir. Burada Azərbaycançılıq konsepsiyası əsas yer tutur. Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayında (9 noyabr 2001-ci il) demişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" [4, s.197].

Prezident İlham Əliyev 44 günlük müharibədə tarixi Zəfərdən sonra, Respublika tarixinin fundamental məsələlərinin müəyyən edilməsi və onların öyrənilməsi sahəsində mühüm müddəalar ilə çıxış etmişdir. Onların arasında müasir Azərbaycan tarixini dəyişən İkinci Qarabağ müharibəsinə dair fikirlər xüsusi yer tutur. Prezident İlham Əliyev demişdir: "İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq

kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar" [5].

44 günlük Qarabağ Zəfərinin nəticələrindən biri də "Dağlıq Qarabağın statusu" məsələsinin tamamilə müzakirədən çıxarılması olmuşdur. Xatırladaq ki, 1920-ci illərin əvvəllərində süni surətdə qabardılan Dağlıq Qarabağ məsələsi 1923-cü ilədək rəsmi İrəvanla Bakı arasında kəskin siyasi mübarizənin yeni mərhələsinin əsasını qoymuşdu. O vaxt Moskvanın təzyiqi ilə 1923-cü il iyulun 7-də Azərbaycan SSR tərkibində Dağlıq Qarabağa muxtariyyət statusu verildi. Bu Qarabağ torpaqlarının parçalanması, gələcəkdə Ermənistanın bu əraziyə əsassız iddialar irəli sürməsinə şərait yaradılması demək idi. Sovet hakimiyyəti illərində Mərkəz də bu "kart"dan öz mənafeyi üçün çox məharətlə istifadə etmişdir. XX əsrin 80-ci illərinin sonları 90-cı illərinin əvvəllərində erməni silahlı birləşmələrinin bölgədə yaşayan azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər, 1991-ci il sentyabrın 2-də qondarma bir qurum – "Dağlıq Qarabağ Respublikası"nın yaradılması Azərbaycan rəhbərliyinin qəti addımlar atmasını şərtləndirdi. Azərbaycan rəhbərliyi 1991-ci il noyabrın 26-da "Azərbaycan və erməni xalqları arasında milli ədavət yaradan və dərinləşdirən" Dağlıq Qarabağın muxtar statusunu ləğv etdi. Lakin bundan sonra Dağlıq Qarabağda yaradılan oyuncaq rejim təxminən 30 il "fəaliyyət" göstərmişdir. Bu 30 il ərzində Ermənistanla aparılan danışıqlar heç bir nəticə verməmiş və Müzəffər Azərbaycan Ordusu silahlı yolla Qarabağı işğaldan azad etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarından birində yuxarıdakı məsələyə aydınlıq gətirərək demişdir: "Uzun müddət Ermənistanla aparılan danışıqlarda kiçik olsa da, bəzi tərəqqi əldə edilmişdi, baza prinsipləri əsasında müəyyən addımlar atılmışdı. Amma son illər mənim də, necə ki, Azərbaycan xalqının əksər hissəsinin bütün ümidləri artıq tükənmişdi. Sadəcə olaraq, mən demişdim, bir daha demək istəyirəm ki, nə vaxt nəyi etmək lazımdır, necə etmək lazımdır, hansı məqamda nəyi etmək lazımdır, hər şey gərək ölçülüb-biçilsin. Elə zərbə vurmalıyıq ki, düşmən o zərbədən ayılmasın. Elə zərbə vurmalıyıq ki, düşmən bundan sonra daha baş qaldırmasın. Bu müharibə bizim şanlı Qələbəmizdir. Biz fəxr edirik" [6].



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**